● Tarix yazan oğullar

# Son nəfəsində də Vətən dedi

**Mayor Emin Süleymanov 2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlanan Vətən müharibəsində artilleriyaçı kimi iştirak etmişdir. Murovdağın, Füzulinin, Xocavəndin, Şuşanın və Laçının azad olunması uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərmişdir. Təəssüflər olsun ki, cəsur zabit 9 noyabr 2020-ci ildə müharibənin 43-cü günündə 43 yaşında Laçın dəhlizi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.**





İkinci Qarabağ müharibəsində iştirak edən zabit və əsgərlərimiz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdikləri misilsiz qəhrəmanlıqlar xalqımıza böyük qələbə sevinci yaşatdı. Mayor Emin Süleymanov İkinci Qarabağ müharibəsinin ilk günündən döyüşlərə atılıb. Artilleriyaçı kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Vətən qarşısındakı övladlıq borcunu şərəflə yerinə yetirib. Son nəfəsində də "Vətən" deyib...

İkinci Qarabağ müharibəsində vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirdiyinə və döyüşlərdə göstərdiyi igidliyə görə mayor Emin Bəhmən oğlu Süleymanov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

Emin Süleymanov 21 iyul 1977-ci ildə İmişli rayonunun Xubyarlı kəndində dünyaya göz açmışdı. 1983-1992-ci illərdə kənddəki orta məktəbdə oxumuşdu. 1992-cü ildə hərbçi olmaq arzusu ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olmuşdu. 1995-1999-cu illərdə isə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə artilleriya ixtisasına yiyələnmişdi. Ali hərbi təhsilini başa vuran Emin Süleymanov leytenant rütbəsi ilə hərbi hissələrdən birinə taqım komandiri təyin olunmuşdu. Xidmətə böyük həvəslə başlayan gənc zabit hərbi məktəblərdə əxz etdiyi bilikləri böyük həvəslə ordu sıralarına yeni çağırılan əsgərlərə öyrədirdi.

Sonrakı illərdə Emin Süleymanov ayrı-ayrı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət etdi. Həmişə də üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldi. Cəsur zabit Aprel döyüşlərində böyük hünər və cəsarət göstərdi. Düşmən hədəflərinə dəqiq artilleriya zərbələri endirdi. Vətən müharibəsində isə mayor Emin Süleymanovun döyüş yolu Murovdağdan başladı. Bir müddət bu istiqamətdə vuruşduqdan sonra onların bölmələri Füzuli rayonuna göndərildi. Emin bu istiqamətdə vuruşa-vuruşa Cəbrayıldan, Zəngilandan, Qubadlıdan və Laçından keçərək Şuşayacan getdi. Şuşanın erməni işğalçılarından azad olunmasında yaxından iştirak etdi. Son döyüşü də elə bu istiqamətdə oldu. Həyat yoldaşı Məhsəti Süleymanova Eminli günlərindən və onun son zəngindən söz açdı:

- İki övladımız var. Emin çox vətənpərvər bir zabit idi. Söhbətinin əvvəli də, sonu da Vətən idi. Ən böyük arzusu işğalda qalmış torpaqlarımızın düşməndən azad olunmasıydı. İkinci Qarabağ müharibəsində döyüşlərə yola düşəndən sonra tez-tez zəng vurub uşaqlardan hal-əhval tutur, uğurlu döyüşlərindən danışırdı. Son zəngi noyabrın 7-də oldu. Dedi ki, artıq Şuşaya yaxınlaşırıq. Bu gün-sabah Şuşanı da işğaldan azad edəcəyik. Bu, ondan gələn son zəng oldu. Noyabrın 9-da Eminin şəhid olduğunu eşitdik. Onu İmişli rayonunun Xubyarlı kəndində torpağa tapşırdıq. Həyat yoldaşımın qəhrəmanlığı, igidliyi ilə həmişə fəxr edəcəyəm. Övladlarımı onun adına layiq böyütməyə çalışacağam.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 7 may, № 93.- S.11.